Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

«Təsdiq edirəm»:
Tədris məsələləri üzrə prorektor vəzifəsini
icra edən:__________dos.Z.Məmmədov
" 13 " 02 2026-cı il

**Fənn sillabusu**
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:**7001001- Pedaqogika
**İxtisaslaşmanın adı:** Məktəbəhazırlığın təşkili
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:**İbtidai təhsil və məktəbəqədər təlim

**I. Fənn haqqında məlumat:**

**Fənnin adı:** Məktəbəhazırlıq dövründə uşaqların estetik yaradıcı inkişafı. İşçi proqram "İbtidai təhsil və məktəbəqədər təlim" kafedrasının 12 fevral 2026-ci il tarixli, 10 saylı iclasının qərarı ilə təsdiq edilmişdir.
**Kodu:** MİF-B01.08
**Tədris ili:** I (2025-2026) Semestr- II
**Tədris yükü.** Cəmi-180 saat: auditoriya- 30 saat (15 saat mühazirə, 15 saat seminar)
**Tədris forması:** Əyani
**AKTS üzrə kredit:**6 kredit

**II.Müəllim haqqında məlumat:**

**Adı, soyadı, elmi dərəcəsi və elmi adı:**Baxışova Şərafət Aram qızı,ped.ü.elm.dok., professor
**Məsləhət günləri və saatı:** IV gün saat 9.00-13.00.
Məsləhət günləri və saatı: IVgün saat $9^{00}$-$13^{00}$.
E-mail ünvanı: sharafat_baxishova1960@mail.ru
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris binası

**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat:**

1.Azərbaycan RespublikasındaməktəbəqədərtəhsilinyeniləşməsiProqramı(2007-2010-cu illər).Bakı:2007
2.Cəfərova L.,Əhmədova A.,Rəhimova S. Muasir uşaq bağçalarında təlimin təşkili. Bakı, 2021
3.Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı: 2020
4.Baxışova Ş.A.Məktəbəhazırlıq üzrə inkişafetdirici təlimin təşkili metodikası. Dərs vəsaiti. Bakı- 2018. ADPU-nun mətbəəsi.
5.AzərbaycanRespublikasındaməktəbəqədərtəhsilinProqramı(Kurikulum)Bakı: 2012
6.Məktəbəqədər təhsilin Dövlət Standartı və proqramı, Bakı: 2010

**Əlavə ədəbiyyat:**

7. Vetlugina N.A. Uşaq bağçasında estetik tərbiyə sistemi. - M. Təhsil, 2022

8.Baxışova Ş.A. Uşaq bağçalarında gəzintilərin təşkili. Bakı, 2021
9. Rüstəmova N., Mursaqulova R., Məktəbəqədər pedaqogika, Bakı 2019
10.Məmmədova P.Ə.«Uşağın məktəb təliminə hazırlığının psixoloji xüsusiyyətləri». Bakı 2017.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına ehtiyac yoxdur.

**VI.Fənnin təsviri və məqsədi**: Məktəbəhazırlıq dövründə uşaqların estetik və yaradıcı inkişafı onların şəxsiyyətinin formalaşmasında, yaradıcılıq bacarıqlarının inkişafında və dünyanı anlamaqda mühüm rol oynayır. Bu dövrdə uşaq estetik zövq, incəsənətə maraq və yaradıcı düşüncə qabiliyyətləri ilə tanış olur. Bu fənn məktəbəhazırlıq yaşlı uşaqlarda gözəlliyi dərk etmək, duymaq və onu yaradıcı şəkildə ifadə etmək bacarıqlarını formalaşdırmağa yönəlmişdir. Fənnin əsas məqsədi uşaqların estetik zövqünü, yaradıcılıq potensialını, fərdi ifadə bacarıqlarını inkişaf etdirmək, incəsənətə və ətraf mühitə qarşı müsbət emosional münasibət formalaşdırmaqdır.Burada uşaqların təbii maraq və müşahidəçilik xüsusiyyətlərini nəzərə alınaraq, onların təsviri sənət, musiqi, təbiət gözəlliklərinin qavranması, teatrlaşdırılmış oyunlar və digər bədii fəaliyyətlərə cəlb olunması ilə həyata keçirilir. Estetik fəaliyyətlər zamanı uşaqlar öz daxili dünyasını ifadə etməyi, rənglər və formalarla işləməyi, musiqi ritmlərinə uyğun hərəkət etməyi öyrənirlər.Məktəbəhazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafı onların ətraf aləmi dərk etmə, müstəqil düşünmə, özünü ifadə etmə və yaradıcı həllər tapma bacarıqlarını formalaşdırır, bu isə onlara məktəb həyatına daha yaxşı hazırlanmaq üçün vacibdir. Bu prosesdə rəsm çəkmə, musiqi, rəqs, teatr, əl işləri və ətraf mühitlə maraqlanmaq kimi fəaliyyətlər estetik duyğuları, təxəyyülü və yaradıcılığı gücləndirir. Fənnin tədrisində məktəbəhazırlıq dövrdə uşaqlarda estetik zövqün və yaradıcı təfəkkürün inkişaf mexanizmlərini öyrədilməsi, bədii fəaliyyət növləri vasitəsilə uşağın şəxsiyyət kimi formalaşmasına pedaqoji dəstək bacarıqları formalaşdırılması təmin edilir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə**: Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və ya laboratoriya dərslərində fəaliyyətinə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır. İmtahan biletinə, bir qayda olaraq fənn üzrə proqram materialını əhatə edən 5 sual daxil edilir. Hər sual 10 bala qədər qiymətləndirilir.

**Qiymət meyarları aşağıdakılardır:**

-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.

-9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.

-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;

-7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir

-6 bal- tələbənin cavabı əsasən düzgündür.

-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.

-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;

-3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;

-1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

*Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)*

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**VIII.Təqvim-mövzu planı:** ***15 saat mühazirə , 15 saat seminar***

| N | **Keçilən mühazirə və seminar mövzularının məzmunu** | saat | | Tarix |
|---|---|---|---|---|
| | **I kollokvium mövzuları** | m. | s. | |
| 1. | **Məktəbəhazırlıq dövrdə uşaqların estetik inkişaf və yaradıcı bacarıqların mahiyyəti, məqsədi, vəzifələri**<br>**Plan:** 1. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafının mahiyyəti. 2. Məktəbəqədər yaşlı uşaqların yaradıcı bacarıqlarının mahiyyəti. 3.Məktəbəqədər yaşlı uşaqların estetik-yaradıcı inkişafının məqsədi və vəzifələri.<br>Mənbə: 1,2,3,4,5,6 | 2 | 2 | |
| 2. | **Məktəbəhazırlıq dövrdə uşaqların estetik-yaradıcı inkişafının proqramlarda təqdim olunma xüsusiyyətləri (1998, 2007, 2010, 2012, 2022)**<br>**Plan:** 1.Məktəbəqədər təhsil kurikulumun inkişaf sahaəsi. 2.Kurikulumda uşaqların estetik və yaradıcı inkişafının təmin olunma yolları. 3.Məktəbəqədər yaşlı uşaqlarla aparılacaq yaradıcı işlərin təşkili formaları.4.Uşaqların estetik inkişafının proqramda verilmə üsulları. | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | Mənbə: 8,9,10 | | | |
| 3 | **Məktəbəhazırlıq qrup otaqlarının uşaqların estetik-yaradıcı inkişafında rolu**<br>**PLAN:** 1.Məktəbəhazırlıq qrup otaqlarının dizaynı. 2.Uşaq bağçalarında yerləşdirilən vəsaitlərin uşaqların estetik inkişafına təsiri. 3. Məktəbəhazırlıq qrup otaqlarında uşaqların yaradıcı inkişafına təsir edəcək dizaynlar. 4.Qrup otağındakı şəkillərin uşaqların estetik və yaradıcı inkişafına təsir yolları.<br>Mənbə:,6,7,8,10 | 2 | 2 | |
| 4. | **Tərbiyəçi - müəllimin uşaqlarla apardığı estetik və yaradıcı işlərinin metodiki əsasları**<br>**PLAN:** 1.Uşaq bağçalarında müxtəlif estetik və yaradıcı fəaliyyətin təşkili. 2.Uşaq bağçalarında estetik və yaradıcı işlərin təşkili və aparılmasında tərbiyəçinin aparıcı rolu. 3. Uşaq bağçasında aparılan estetik və yaradıcı işlərin tərbiyəçi səriştəsinin imkanları.<br>Mənbə: 2,6,7,8,9,10 | 2 | 2 | |
| | **II kollokvium sualları** | | | |
| 5. | **Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına təsir edən vasitələr**<br>**PLAN:** 1.Uşaqların bədi iyaradıcılıq qabiliyyətlərinin inkişaf yolları. 2.Ətraf aləmdə baş verən hadisəyə uyğun münasibətlərin yaradılması yolları.3.Uşaqlarda ayrı-ayrı yaş qrupları üzrə bədii yaradıcılıq bacarıqlarının formalaşdırılması.<br>Mənbə: 2,3,4,5. | 2 | 2 | |
| 6. | **Uşaqların estetik zövqünü inkişaf etdirən pedaqoji vasitələr.**<br>**PLAN:** 1.Uşaqların estetik zövqünü inkişaf etdirən pedaqoji tələblər. 2.Uşaq bağçasında estetik zövqün inkişafı üzrə iş sistemi. 3.Estetik tərbiyənin prinsipləri. 4.Uşaqların estetik zövqünün formalaşdırılmasında tərbiyəçi və valideyn rolunun təsiri.<br>Mənbə: 4,5,6,7,8,9,10 | 2 | 2 | |
| 7. | **Uşaqların estetik-yaradıcı fəaliyyətinin təşkili yolları.**<br>**PLAN:** 1.Uşaqların estetik və yaradıcı inkişafı üzrə ayrı-ayrı tədbirlərin hazırlanması və keçirilməsi metodikası. 2.Məşğələlər estetik-yaradıcı inkişafın vasitəsi kimi. 3.Məktəbəqədəryaşlı uşaqların dünyagörüşünün formalaşmasında yaradıcı inkişafın rolu. 4.Cizgi filmlərinin uşaqların estetik və yaradıcı inkişafına təsir yolları.<br>Mənbə: 3,4,5,6,7,8,9,10 | 2 | 2 | |
| 8. | **Məşğələ və məşğələdənkənar vaxtlarda uşaqlarda estetik** | 1 | 1 | |

| | | | | |
|---|---|---|---|---|
| | **hisslərin və yaradıcı düşüncələrin formalaşma yolları.**<br>**PLAN:** 1.Məşğələ və məşğələdənkənar vaxtlarda uşaqların fəaliyyətinin təşkili. 2.Məktəbəqədəryaşlı uşaqların dərnəklərdə estetikvə yaradıcı inkişafı. 3.Uşaq teatrı və musiqi konsertlərinin uşaqların estetik və yaradıcı inkişafına təsiri. 4.Gəzintilərin uşaqların estetik və yaradıcı inkişafına təsiri.<br>Mənbə: 4,5,6,7,8,11,12 | | | |
| | CƏMİ: | 15 | 15 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**Tələbə aşağıdakılari bilməli və bacarmalıdır: Pedaqogikanın həm nəzəri, həm də tətbiqi elm olduğunu, uşaq bağçasında təlimin ümumi didaktik prinsiplərini, məktəbəqədər təhsilin əhəmiyyət və rolunu, məktəbəqədər təhsil proqramının (kurikulumunun) məqsəd və vəzifələrini, məktəbəqədər təhsil kurikulumunun prinsiplərini, məktəbəqədər təhsil müəssisələrində təlim prosesi və onun təşkili prinsiplərini.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- *Təqdimatın hazırlanması*
- *Müzakirə metodları: diskussiya, debat*
- *Tapşırıqlar, müstəqil iş*
- *Layihələr*
- *Multimedia vasitələri*

**XIII. Fənn üzrə təlim nəticələri:**

FTN 1.Uşaqların estetik və yaradıcı inkişafının əsas anlayışlarını və mərhələlərini təsvir edir.

FTN 2.Estetik zövqün, yaradıcılıq qabiliyyətlərinin formalaşmasında təlim və tərbiyənin rolunu izah edir.

FTN 3.Müxtəlif estetik fəaliyyət növləri (rəsm, musiqi, hərəkət, teatr və s.) və onların uşaqların inkişafına təsirini bilir.

FTN 4.Yaradıcı inkişafı dəstəkləyən pedaqoji yanaşmalar və metodları tanıyır.

FTN 5.Uşaqların estetik və yaradıcı inkişaf səviyyəsini müşahidə və qiymətləndirir.

FTN 6.Estetik zövqün və yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün uyğun məşğələlər və oyunlar təşkil edir.

FTN 7.Müxtəlif incəsənət növlərindən istifadə edərək uşaqların yaradıcılıq potensialını artırır.

FTN 8.Uşaqların fərdi xüsusiyyətlərini nəzərə alaraq yaradıcı fəaliyyətlər planlaşdırır və həyata keçirir.

FTN 9.Estetik və yaradıcı inkişaf sahəsində müasir pedaqoji texnologiyaları tətbiq edir.

FTN 10.Uşaqların yaradıcı potensialını aşkara çıxarmaq və inkişaf etdirmək üçün fərdiləşdirilmiş yanaşma tətbiq edir.

FTN 11.Valideynlər və həmkarlarla əməkdaşlıq edərək uşaqların estetik inkişafını dəstəkləyir.

XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:

___

___

___

XV. Fənn üzrə kollokvium sualları:

I KOLLOKVİUM SUALLARI :

1. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafının mahiyyəti
2. Məktəbəqədər yaşlı uşaqların yaradıcı bacarıqlarının mahiyyəti
3. Məktəbəqədər yaşlı uşaqların estetik-yaradıcı inkişafının məqsədi və vəzifələri
4. Məktəbəqədər təhsil kurikulumun inkişaf sahaəsi
5. Kurikulumda uşaqların estetik və yaradıcı inkişafının təmin olunma yolları
6. Məktəbəqədər yaşlı uşaqlarla aparılacaq yaradıcı işlərin təşkili formaları
7. Uşaqların estetik inkişafının proqramda verilmə üsulları
8. Məktəbəhazırlıq qrup otaqlarının dizaynı
9. Uşaq bağçalarında yerləşdirilən vəsaitlərin uşaqların estetik inkişafına təsiri
10. Məktəbəhazırlıq qrup otaqlarında uşaqların yaradıcı inkişafına təsir edəcək dizaynlar

II KOLLOKVİUM SUALLARI :

1. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf yolları
2. Ətraf aləmdə baş verən hadisəyə uyğun münasibətlərin yaradılması yolları
3. Uşaqlarda ayrı-ayrı yaş qrupları üzrə bədii yaradıcılıq bacarıqlarının formalaşdırılması
4. Uşaqların estetik zövqünü inkişaf etdirən pedaqoji tələblər
5. Uşaq bağçasında estetik zövqün inkişafı üzrə iş sistemi
6. Estetik tərbiyənin prinsipləri
7. Uşaqların estetik zövqünün formalaşdırılmasında tərbiyəçi və valideyn rolunun təsiri
8. Uşaqların estetik və yaradıcı inkişafı üzrə ayrı–ayrı tədbirlərin hazırlanması və keçirilməsi metodikası
9. Məşğələlər estetik-yaradıcı inkişafın vasitəsi kimi
10. Məktəbəqədər yaşlı uşaqların dünyagörüşünün formalaşmasında yaradıcı inkişafın rolu

XVI. Fənn üzrə imtahan sualları:

1. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafının mahiyyəti
2. Məktəbəqədər yaşlı uşaqların yaradıcı bacarıqlarının mahiyyəti
3. Məktəbəqədər yaşlı uşaqların estetik-yaradıcı inkişafının məqsədi və vəzifələri

4. Məktəbəqədər təhsil kurikulumun inkişaf sahaəsi
5. Kurikulumda uşaqların estetik və yaradıcı inkişafının təmin olunma yolları
6. Məktəbəqədər yaşlı uşaqlarla aparılacaq yaradıcı işlərin təşkili formaları
7. Uşaqların estetik inkişafının proqramda verilmə üsulları
8. Məktəbəhazırlıq qrup otaqlarının dizaynı
9. Uşaq bağçalarında yerləşdirilən vəsaitlərin uşaqların estetik inkişafına təsiri
10. Məktəbəhazırlıq qrup otaqlarında uşaqların yaradıcı inkişafına təsir edəcək dizaynlar
11. Qrup otağındakı şəkillərin uşaqların estetik və yaradıcı inkişafına təsir yolları
12. Uşaq bağçalarında müxtəlif estetik və yaradıcı fəaliyyətin təşkili
13. Uşaq bağçalarında estetik və yaradıcı işlərin təşkili və aparılmasında tərbiyəçinin aparıcı rolu
14. Uşaq bağçasında aparılan estetik və yaradıcı işlərin tərbiyəçi səriştəsinin
15. imkanları
16. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf yolları
17. Ətraf aləmdə baş verən hadisəyə uyğun münasibətlərin yaradılması yolları
18. Uşaqlarda ayrı-ayrı yaş qrupları üzrə bədii yaradıcılıq bacarıqlarının formalaşdırılması
19. Uşaqların estetik zövqünü inkişaf etdirən pedaqoji tələblər
20. Uşaq bağçasında estetik zövqün inkişafı üzrə iş sistemi
21. Estetik tərbiyənin prinsipləri
22. Uşaqların estetik zövqünün formalaşdırılmasında tərbiyəçi və valideyn rolunun təsiri
23. Uşaqların estetik və yaradıcı inkişafı üzrə ayrı–ayrı tədbirlərin hazırlanması və keçirilməsi metodikası
24. Məşğələlər estetik-yaradıcı inkişafın vasitəsi kimi
25. Məktəbəqədər yaşlı uşaqların dünyagörüşünün formalaşmasında yaradıcı inkişafın rolu
26. Cizgi filmlərinin uşaqların estetik və yaradıcı inkişafına təsir yolları
27. Məşğələ və məşğələdənkənar vaxtlarda uşaqların fəaliyyətinin təşkili
28. Məktəbəqədər yaşlı uşaqların dərnəklərdə estetik və yaradıcı inkişafı
29. Uşaq teatrı və musiqi konsertlərinin uşaqların estetik və yaradıcı inkişafına təsiri
30. Gəzintilərin uşaqların estetik və yaradıcı inkişafına təsiri

"Məktəbəhazırlıq dövründə uşaqların estetik yaradıcı inkişafı" fənninin sillabusu 7001001 - "Məktəbəhazırlığın təşkili" ixtisasının təhsil proqramı, tədris planı və "Məktəbəhazırlıq dövründə uşaqların estetik yaradıcı inkişafı" işçi fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus İbtidai təhsil və məktəbəqədər təlim kafedrasının 12 fevral 2026-cı il tarixli iclasında (protokol № 10) təsdiq olunmuşdur.

**Kafedra müdiri:** **dos. A.B.Əliyev**

**Fənn müəllimi:** **prof.Ş.A.Baxışova**